# TWINNING NEWSLETTER

**Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək**

**7-ci buraxılış, aprel 2022-ci il**

**Mövzular**

- ✓ Finlandiyaya tədris səfəri
- ✓ Litvaya tədris səfəri
- ✓ Statistik istehsal üçün R proqram təminatından istifadə
- ✓ SBS üçün imputasiyadan istifadə
- ✓ SBS məlumatlarının toplanılmasının inkişaf etdirilməsi
- ✓ SBS məlumatlarının email
- ✓ Təlim: Statistika hesabatlarının hazırlanması

## Layihə barədə

Aİ tərəfindən maliyyələşdirilən bu Tvinninq layihəsi (AZ/16/ENI/ST/01/19 (AZ/53)) Finlandiyanın Statistika İdarəsinin rəhbərlik etdiyi və Litvanın Statistika Departamenti və Niderland Mərkəzi Statistika Bürosunun kiçik tərəfdaş kimi daxil olduğu **konsorsium** tərəfindən həyata keçirilir. Həmçinin Danimarkanın Statistika İdarəsi və Finlandiyanın İctimai İdarəetmə İnstitutu layihəyə əlavə dəstək təmin edir.

**Əsas benefisiar təşkilatlar** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir. Tvinninq laihəsinin **ümumi məqsədi** Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarətdir.

**Nəşr etdi:** Tvinninq ofisi
**Ünvan:** İnşaatçılar prospekti 81, Bakı şəhəri, AZ 1136
Tel: +994 12 377 10 70
**Veb-səhifə:** **http://www.stat.fi/aztwinning**
**Bizi izləyin:**
**Xəbər bulletenimizə abunə olmaq istəyirsinizsə, gultakin.babayeva@stat.fi e-poçtuna müraciət göndərməyinizi xahiş edirik.**

## Layihə xəbərləri

24-28 yanvar 2022-ci il tarixlərində Finlandiyanın Helsinki şəhərində, Struktur Biznes Statistikasına həsr olunmuş 4 saylı **tədris səfəri** təşkil olunmuşdur. Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələrindən ibarət doqquz (9) nəfərlik heyət və Tvinninq layihəsinin tərcüməçisi hibrid formatda baş tutan 5 günlük təlim səfərində iştirak ediblər.

Səfərin məqsədi Azərbaycanda Biznes Statistikasının yenidən dizayn olunmasına dəstək vermək olmuşdur. Finlandiya Statistika İdarəsinin ekspertləri ən yaxşı təcrübələrini həmkarları ilə bölüşmüşlər.

Səfər zamanı BÖ rəsmiləri Struktur Biznes Statistikasının təsviri və təşkili, Finlandiya Biznes Statistikasının İstehsal Sistemi (YTY), Finlandiya Statistika İdarəsində kommunikasiya vasitələri, redaktə və imputasiya, Struktur Biznes Statistikasına dair nəşrlər, “PxWeb”məlumat bazası və s. mövzularla tanış olmuşlar.

Dövlət Statistika Komitəsi Sədrinin birinci müavini cənab Vahab Məmmədov səfərin 4-cü günü Finlandiya Statistika İdarəsinin direktoru cənab Markus Sovala ilə görüşmüşdür. Səfərin son günü, cənab Məmmədov, Finlandiya Statistika İdarəsinin Beynəlxalq Əməkdaşlıq Departamentinin direktoru cənab Timo Koskimakiyə müsahibə vermişdir. Müsahibə üçün klikləyin: https://youtu.be/YKJEqZGV_BQ



Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri 17-21 yanvar tarixlərində Litvanın Statistika İdarəsinin təşkilatçılığı ilə keçirilən 5 günlük tədris səfərində iştirak ediblər. Bu tədris səfərinin məqsədi Biznes Sorğuları üçün istifadə olunan seçmə formalarının öyrənilməsidir.

Tədris səfəri zamanı BÖ rəsmiləri aşağıda qeyd olunan sahələr üzrə məlumat əldə etdilər:

- Litvanın Statistika idarəsində Biznes Statistikasına dair məlumatların istehsalı
- Proses xəritəsinə uyğun olaraq əsas alt-proseslərin nəzərdən keçirilməsi
- GSBPM-dən sonrakı mərhələdə qısamüddətli Biznes Statistikası və Əmtəə Statistikası sorğuları üçün istehsal prosesi
- Litva Statistika İdarəsində seçmə təcrübəsi
- SBS/KOB məlumatlarının əldə olunması: nümunənin dizayn edilməsi, emalı, istifadə olunan inzibati məlumatlar və proqram təminatları
- SBS/KOB məlumatlarının tərtibi və yoxlanılması
- KOB göstəricilərinin nəşr olunması

Benefisiar ölkədən olan nümayəndələr Avrostatın tələblərinə cavab verən Biznes Sorğu seçmə dizaynları üzrə təlim keçmiş, cari biznes sorğusu və Biznes reyestrinin seçmə dizaynlarını nəzərdən keçirmiş və Litvadakı həmkarları ilə fikir və təcrübə mübadiləsi aparmışlar.

**1.4.B saylı** Fəaliyyət “Statistik istehsal üçün R proqram təminatından istifadə üzrə Dövlət Statistika Komitəsi (DSK), DVX və KOB Agentliyinin işçi heyətinin potensialının artırılması” təlimi 28 Mart – 1 Aprel 2022-ci il tarixində DSK-də keçirilmişdir. Təlimin məqsədi R proqram təminatının imkanları ilə tanışlıq olmuşdur.

**Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir**

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Beş günlük təlim müddətində Finlandiya Statistika İdarəsi və Litva Statistika Departamentini təmsil edən qısamüddətli ekspertlər cənab Henri Luomaranta və cənab Tomas Rudys R/R-studio, GSBPM və R modulları və kitabxanaları, məlumatları R-a daxil edilməsi və nəticələrin çıxarılması, məlumatların manipulyasiyası, qrafiklərin hazırlanması, rəsmi statistikanın işlənilməsi, təhlili və paylanılması üçün R-dan istifadə, RMarkdown və RSummary vasitəsilə hesabatların yazılması kimi mövzular barədə təqdimatlar etdilər. Həftənin sonunda iştirakçılar R proqramından istifadə etməklə ilk statistik nəşrlərini hazırladılar.





"Əsas diqqətin proqram təminatlarından istifadəsinə, o cümlədən qrafik və infoqrafikanın hazırlanmasına yetirməklə statistik hesabatların, eləcə də keyfiyyət hesabatlarının hazırlanması" **6.3.B. saylı** təlim fəaliyyəti 14-18 fevral 2022-ci il tarixində keçirilişdir. Təlim Finlandiya Statistika İdarəsindən cənab Markku Huttunen, xanım Jaana Huhta və cənab Kim Huuhko tərəfindən keçirilmişdir. Təlimin məqsədi Benefisiar Ölkə mütəxəssislərinin statistik dizayn, təhlil, hesabat və məlumatların paylanılması sahəsində potensialının artırılmasından ibarət olmuşdur. Qısamüddətli ekspertlər Finlandiya Statistika İdarəsinin nəşr sistemi, əlçatanlıq və istifadəyə dair beynəlxalq tələblər, proqram təminatlarından istifadə etməklə nəşr praktikası və keyfiyyət hesabatlarının nəşri, statistikada statistik qrafik və infoqrafiklər, e-nəşrlər, pres relizlər və sosial mediada Biznes Statistikası və KOB statistikası məlumatlarının paylanılması barədə təqdimatlar etdilər. 5 günlük təlim müddətində Benefesiar ölkənin nümayəndələri əsas diqqətin proqram təminatlarından istifadəsinə yetirməklə statistik hesabatların, eləcə də keyfiyyət hesabatlarının hazırlanması sahəsində təlimləndirilmiş və QME-lərlə fikir və təcrübə mübadiləsi aparmışlar.

**4.4.B saylı** fəaliyyət Niderlandın Statistika İdarəsindən cənab Guus von de Burgt, Finlandiya Statistika İdarəsindən xanım Elina Ikola və xanım Saara Roine tərəfindən 2022-ci ilin mart ayının ilk həftəsində həyata keçirilmişdir. Fəaliyyətin məqsədi Struktur Biznes Statistikası (SBS) üçün imputasiyanın inkişaf etdirilməsi olmuşdur. İştirakçılar imputasiya ehtiyaclarını və imkanlarını araşdırdılar və R proqram təminatından istifadə etməklə vahidlərin imputasiyası metodlarını işləyib hazırladılar. QME-lər və BÖ-dən olan tərəf müqabilləri bu imputasiya metodlarını sınaqdan keçirmək məqsədilə imputasiya metodları hazırladılar. Həmçinin Fəaliyyət üzrə Missiya hesabatı hazırlanmışdır.






2022-ci ilin mart və aprel aylarında **4.4.A və 4.4.C** fəaliyyətləri cənab Andrius Ciginas, cənab Vilppu Salovaara və cənab Guus van de Burgt tərəfindən (Finlandiya, Litva və Hollandiya Statistika İdarələri).həyata keçirilmişdir. Fəaliyyətlərin məqsədi SBS məlumatlarının toplanması və SBS məlumatlarının işlənməsinin inkişafı etdirilməsindən ibarət olmuşdur. Sessiyalar zamanı imputasiyanın inkişaf etdirilməsi üzrə növbəti addımlar müəyyən edilmiş, məlumatlar və göstəricilər nəzərdən keçirilərək təsdiqlənmiş, vahidlərin imputasiyası üçün istifadə edilən R kodu nəzərdən keçirilmiş, SBS üçün məlumatların toplanılmasına dair ehtiyaclar müəyyən edilmiş, sorğu anketinin məzmunu təsvir edilmiş və istifadəyə yararlı sorğu anketi hazırlanmışdır.



2022-ci il 11 aprel tarixində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" Tvinninq layihəsinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.

"Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" Tvinninq layihəsinin məqsədi Azərbaycanda özəl sektorun, kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılması, statistik biznes reyestrlərinin təkmilləşdirilməsi və istifadəçilərin biznes statistikasına olan tələbatı nəzərə alınmaqla biznes statistikasının metodologiyasının Avropa İttifaqının standartlarına uyğunlaşdırılması məqsədilə Dövlət Statistika Komitəsinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin potensialının artırılmasından ibarət olmuşdur.

Layihə çərçivəsində 4 işıqlandırma tədbiri, 34 fəaliyyət (24 fəaliyyət onlayn formatda, 10 fəaliyyət isə ənənəvi qaydada həyata keçirilmişdir) və 3 təlim səfəri həyata keçirilmişdir. Finlandiya, Litva, Niderland və Danimarkanın Milli Statistika İnstitutlarını təmsil edən 28 nəfər qısamüddətli ekspert fəaliyyətlərinə cəlb olunmuşdur.

Bütün layihə tərəfdaşları dəstək və yardımlarına görə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinə, bütün işləri koordinasiya edən və Tvinninq layihəsinin uğurla həyata keçirilməsinə töhfə verən tvinninq komandasına dərin minnətdarlıq ifadə etdilər.






**Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir**

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir